**Sahibkarların elektron müraciətləri artır**

Ölkədə sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşması istiqamətində dövlət orqanları tərəfindən elektron xidmətlər sahəsində uğurlu layihələr həyata keçirilməkdədir. Belə ki, ölkə başçısının «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmanına uyğun olaraq, İqtisadi İnkişaf Nazirliyinin www.economy.gov.az internet səhifəsində yeni bölmə - Elektron Xidmətlər Bölməsi yaradılmışdır. Bölmədə nazirlik tərəfindən müxtəlif fəaliyyət növlərinə lisenziyaların və malların mənşə və keyfiyyət sertifikatlarının verilməsi üçün tələb olunan sənədlərin siyahısı və müraciət edən şəxs tərəfindən doldurulmalı olan ərizənin elektron forması yerləşdirilib.

Sahibkarlar İqtisadi İnkişaf Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərdən istifadə edərək tələb olunan sənədləri elektron formada təqdim etməklə yanaşı, həmin xidmətlər üçün qanunvericiliklə müəyyən olunmuş dövlət rüsumlarının və xidmət haqlarının ödənişini də onlayn rejimdə həyata keçirə bilərlər. Onlar ödənişə dair təsdiqedici sənədləri elektron qaydada göndərərək nazirlik tərəfindən verilən lisenziyaları, mənşə və keyfiyyət sertifikatlarını ala bilərlər. Nazirlikdə kommersiya hüquqi şəxslərin qrant müqavilələrinin qeydiyyatı da onlayn rejimdə aparılır. Bundan başqa, sahibkarlar nazirliyin internet səhifəsində yaradılmış xüsusi bölməyə daxil olmaqla, dövlət nəzarəti tədbirləri zamanı tətbiq edilən cərimə və maliyyə sanksiyalarını real vaxt rejimində ödəyə bilərlər.

İndiyədək İqtisadi İnkişaf Nazirliyinə lisenziya və mənşə sertifikatlarının alınması üçün 600-ə yaxın elektron müraciət daxil olub. Bu müraciətlərin icrası qanunvericiliyə uyğun olaraq, on-layn rejimdə təmin edilib. Bundan başqa, daxil olmuş elektron müraciətlər əsasında kommersiya hüquqi şəxslərin qrant müqavilələri elektron qaydada qeydiyyata alınmış, dövlət nəzarəti tədbirləri zamanı tətbiq edilən cərimə və maliyyə sanksiyalarının onlayn rejimdə ödənişi həyata keçirilmişdir.

Sahibkarlıq fəaliyyətinə başlamaq və fəaliyyətini genişləndirmək istəyən iş adamlarının icazəverici sənədlər, onların alınması prosedurları, təqdim edilməli olan sənədlər barədə məlumatlılıq səviyyəsinin yüksəldilməsi məqsədilə İqtisadi İnkişaf Nazirliyi tərəfindən bu yaxınlarda www.icazeler.gov.az portalı istifadəyə verilmişdir. Təkcə avqust ayında portalı 8 minə yaxın internet istifadəçisi ziyarət edib. İstifadəçilərin 300-dən çoxu ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, Avstriya, Rusiya, Koreya, Türkiyə, İsveçrə, Belçika, Norveç, İrlandiya, İspaniya və s. ölkələrdən olmuşdur. Ümumilikdə, indiyədək portalın fəaliyyətindən 32 minə yaxın internet istifadəçisi yararlanıb. Sahibkarların məlumatlılıq səviyyəsini artırmaq, qanunvericilik aktlarının hazırlanması prosesində onların yaxından iştirakını təmin etmək məqsədilə mərkəzi icra hakimiyyəti orqanlarının qanunvericilik aktlarının layihəsi icazələr elektron portalında yerləşdirilib.

Sahibkarlığın inkişafına sistemli və ardıcıl dövlət dəstəyinin daha bir nümunəsi kimi yaradılmış «Elektron ticarət» portalını göstərmək olar. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli sərəncamı ilə təsdiq olunmuş «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»nın həyata keçirilməsi üzrə Tədbirlər Planında Azərbaycanda elektron ticarətin yaradılması sahəsində işlərin intensivləşdirilməsi barədə İqtisadi İnkişaf Nazirliyinə tapşırıqlar verilmişdir. Tapşırığın icrasını təmin etmək məqsədilə sahibkarların, xüsusilə də kənd təsərrüfatı məhsulları istehsalçılarının sərbəst bazara çıxışının dəstəklənməsi məqsədilə İİN tərəfindən elektron ticarətlə bağlı veb-portal yaradılmışdır. Portal Azərbaycanın ilk «elektron ticarət» portalı olaraq «B2B» (business to business) modeli əsasında qurulmuşdur. Məqsəd yerli biznes nümayəndələri, onların istehsal etdikləri məhsullar və göstərdiyi xidmətlər barədə informasiyaların potensial alıcılara çatdırılması yolu ilə biznes əlaqələrinin qurulmasını dəstəkləməkdən, bazarlara sərbəst çıxışı təmin etməkdən ibarətdir. Portal sahibkarlıq subyektlərinə biznes əlaqələrində etibarlı vasitəçi, dünya biznesinə asan çıxış imkanının yaradılması missiyasını yerinə yetirir. «Elektron ticarət» portalı, eyni zamanda, istifadəçilərə satışla bağlı məlumat dəstəyi də göstərir. «Elektron ticarət» portalında təklif edilən məhsullar, göstərilən xidmətlər barədə daha geniş məlumatları www.b2b.az internet səhifəsindən əldə etmək mümkündür.

Arzu İBRAHİMOVA